Tarix və onun problemləri, №3 2009

SEVDA SÜLEYMANOVA
*BDU-nun professoru*

# MÜSƏLMAN ŞƏRQİNDƏ İLK AVROPA TİPLİ ALİ MƏKTƏB

Avropa düşüncə tərzinə malik, qabaqcıl fikrin ən görkəmli nümayəndəsi olan M.F.Axundov hələ XIX yüzilliyin ortalarında Azərbaycanda maarifçilik hərəkatının əsasını qoymuşdu. Onun Azərbaycan ictimai fikrinin inkişafında misilsiz rolu haqqında M.B.Məmmədzadə yazırdı: "Dövrünün ən ziyalı şəxsi olan XVIII əsr Avropasının tərəqqipərvərlərinin ideyaları ilə ortaya" atılan Mirzə Fətəli Axundov bütün türk və islam dünyasında ilk dəfə dramaturgiya məktəbi yaratmaqla yalnız milli mədəniyyətin təməllərindən ən mühümü olan din və ədəbiyyata xidmət etmişdir. O eyni zamanda yeni Avropa ideyaları dilə gətirir, köhnə ictimai münasibətləri və həyat tərzini tənqid edərək milli yüksəlişə mane olan təşkilatı baltalayır, yerlə yeksan edirdi. ən vacibi də o idi ki, bu növ ədəbiyyat doğrudan doğruya xalqa müraciət edir, geniş xalq kütlələrinin gözünü açırdı. Bu yolla o, teatr kimi yeni bir mədəni müəssisə yaratmış olurdu."[1]

M.F.Axundov əhalinin hamılıqla savadlaması üçün köhnə ərəb əlifbasının latın qrafikasına dəyişdirilməsini vacib sayırdı. Onun hazırladığı "Əlifbeyi-cədid" ("Yeni əlifba") mütərəqqi təhsil sisteminə keçilməsində mühüm addım idi.[2] O, həmçinin milli müəllim kadrlarının hazırlanmasına böyük əhəmiyyət verərək, 1876-cı ildən fəaliyyət göstərən Qoridəki Zaqafqaziya müəllim seminariyasında Azərbaycan bölməsinin açılmasına çalışırdı. Bölmə onun vəfatından sonra, 1879-cu ildə A.O.Çernyayevskinin rəhbərliyi ilə açıldı. Azərbaycan ziyalılarının böyük bir nəsli məhz bu seminanariyanı bitirimiş və onların formalaşmasında M.F.Axundovun maarifçilik fəaliyyətinin böyük rolu olmuşdur. Təkcə 1879-cu ildən 1898-ci ilə qədər buranı 89 azərbaycanlı birtirmişdir.[3] Bu seminariyanın müdavimləri olan S.M.Qənizadə, F.Köçərli, S.S.Axundov, Abdulla Şaiq, H.Mahmudbəyov, F.Ağazadə, N.Nərimanov, M.Qəmərlinski və başqaları M.F.Axundovun maarifçilik ideyalarını inkişaf etdirərək qarşılarına məktəblər üçün müəllim hazırlığı, yeni təhsil üsulu, ana dilində təhsil, qadın təhsilinin inkişaf etdirilməsi, yeni əlifba uğrunda mübarizə, əhalinin bütünlüklə savadlanması vəzifələrini qoymuşdular.

1887-ci ildə S.M.Qənizadə və H.Mahmudbəyov tərəfindən rus-tatar məktəblərinin açılmasının Azərbaycanda Avropa təhsil sisteminə keçilməsində mühüm əhəmiyyəti olmuşdur. Hüseyn Baykara yazır ki: "Bu məktəblərin Azərbaycanın elmi həyatında oynadığı rolu inkar etmək olmaz. Ancaq zaman keçdikcə xalq məktəblərdə çar idarəsinin ruslaşdırma siyasəti yürütdüyünü görüncə bu məktəblərdən soyudu. Azərbaycan xalqı uşaqlarına milli tərbiyə verə biləcək məktəblər istəyirdi.".[4] Bununla belə, M.F.Axundovun maarifçilik fəaliyyətinin ardıcıl davamçısı olan görkəmli ictimai-siyasi xadim Həsən bəy Zərdabi və Əlimərdan bəy Topçubaşov rus-tatar məktəblərinin açılması barədə dəfələrlə Bakı şəhər dumasına müraciət etmişlər.[5]

Bakı şəhər dumasının nəzində olan məktəb komissiyasının üzvü, "Üsuli-cədid"in təşəbbüsçülərindən olan H.Məlikovu M.B.Məmmədzadə, "Avropa maarif sisteminin və tərbiyə üsulunun, ümumavropa mədəniyyətinin ana dili səviyyəsində mənimsənilməsini irəli sürən ilk mütəfəkkirimizdir" kimi qiymətləndirmişdir.[6]

Milli teatr və milli mətbuatımızın banisi Həsən bəy Zərdabi xalqımızın maariflənmə uğrunda mübarizəsini Ç.Darvinin yaşamaq uğrunda mübarizə təliminə şamil edərək "Əkinçi" qəzetində yazırdı: "Bizim ilə zindəganlıq zəngi edən millətlər elm təhsil edirlər. Ona binaən gərək biz də elm təhsil edək ki, onlara zindənlıq cəngində qalib olmasaq da, onların bərabərində dayanıb duraq, yoxsa dövlət və xoş güzəranlıq onların əlinə keçəcəkdir və biz mürur ilə zindəganlıq cəngində məğlub olub tələf olacağıq"[7] O, millətimizin bu həyat mübarizəsində məğlub olmaması üçün müasir mədəniyyətə yiyələnməsini, Avropa üsulu ilə məktəblər açılmasını təklif edirdi. Onun fikrincə, Avropa mədəniyyət və maarif sistemini qəbul etməsək qonşularımızın əsiri olaraq qalacaq və

məhv olub gedəcəyik.[8] Yuxarıda qeyd etdiyimiz kimi maarifçilərimiz qadınların təhsil alması uğrunda da mübarizə aparırdılar. İlk qadın məktəbləri hələ 1848-ci ildə Şamaxıda rus hərbçiləri və məmurlarının uşaqları üçün "Müqəddəs Nina" cəmiyyəti tərəfindən eyni adla təsis edilmişdi. 1859-cu ildə Şamaxı zəlzələsindən sonra məktəb Bakıya köçürülmüşdü. 1875-ci ildə həmin cəmiyyət Şuşada da belə məktəb açmış, 1894-cü ildən o, Mariya qadın məktəbinə çevrilmişdi. 1885-ci ildə Gəncədə də "Müqədəds Nina" məktəbi açıldı. Bu məktəb 1899-cu ildən progimnaziyaya, 1902-ci ildən isə gimnaziyaya çevrildi. Rus dilli bu təhsil məktəblərində, təbii ki, azərbaycanlı qızların sayı çox az idi.

1896-cı il aprelin 24-də böyük xeyriyyəçi, milli burjuaziyanın ən görkəmli nümayəndəsi H.Z.Tağıyev öz şəxsi vəsaiti hesabına azərbaycanlı qızlar üçün dünyəvi təhsilli məktəb açılması xahişi ilə Qafqaz canişinliyinin təhsil komissiyasına müraciət etmişdi. Nəhayət, 1901-ci il noyabrın 7-də Bakıda ilk müsəlman qız məktəbi açıldı. Məktəbin direktoru Tiflis gimnaziyasının müdavimi Hənifə xanım Məlikova idi. Məktəbin nəzdində illik pedaqoji kursların açılması müdavimlərə məktəblərdə dərs demək hüququ verirdi. Tezliklə Gəncədə, Ağdaşda, Qazaxda, Şamaxıda, Göyçayda, Karyagində və başqa yerlərdə də müsəlman qız məktəbləri fəaliyyətə başladı. Şəfiqə xanım Əfəndizadə, Rəhilə xanım Hacıbababəyova, Sara xanım Vəzirova və başqaları həmin məktəblərin ilk müəllimləri olmuşlar.

Azərbaycanda, eləcə də bütün Qafqazda gedən sosial-iqtisadi inkişaf getdikcə yüksək ixtisaslı yerli texniki kadrlara tələbatı artırırdı. Bu isə Tiflisdə, Vladiqafqazda və Bakıda "Qafqazda ali təhsil müəssisələrinin yaradılması" uğrunda hərəkatın yaranmasına səbəb oldu.

Tiflis şəhər duması Qafqaz canişinliyinin təhsil komissiyasına göndərdiyi xahişnaməsinə cavab gözləmədən universitet binası üçün torpaq sahəsi ayırmaq barəsində qərar çıxardı. Lakin milli ucqarlarda ali məktəbin açılması çarizmin müstəmləkəçilik siyasətinə zidd idi. Buna görə də canişinliyin rus məmurları müxtəlif bəhanələrlə ali məktəbin açılması barədə müraciətə rədd cavabı verdilər.

Bakı şəhər dumasının üzvü, daş-mədən mühəndisi Fərrux bəy Vəzirov 1898-ci ildə Bakıda politexnik məktəbin açılması təklifini irəli sürdü. Bu təklifi neft sənayeçiləri, o cümlədən H.Z.Tağıyev və Nobel qardaşları" şirkəti dəstəklədi. Bakıda ali məktəb tikilməsi üçün yaradılacaq fonda, onların hər biri 100.000 manat ödəməyi öhdəsinə götürdü.[9]Azərbaycan milli burjuaziyası və ziyalıları da çoxdan arzusunda olduqları ali məktəbin məhz Bakıda açılması təşəbbüsünü alqışladılar. Lakin həm Qafqaz canişinliyi həm də qeyri-azərbaycanlı sahibkarlar öz kapitalını Azərbaycanın sərvəti hesabına qazanmalarına baxmayaraq, ali təhsil ocağının diyarın inzibati mərkəzi olan Tiflisdə açılmasına üstünlük verirdilər. Politexnik instituta bina tikilməsi üçün vəsait toplanmasında Azərbaycanın Bakı, Gəncə, Şəki, Şamaxı və Lənkəran kimi şəhərləri də iştirak edirdilər. Bu ali məktəbin açılmasına ən çox vəsait qoymuş Bakı neft sənayeçiləri mədən şöbəsinin təsisinin zəruriliyində israr edirdilər. Belə ki, bu şöbə açılardısa onun tələbələri üçün Bakıda istehsalat təcrübəsi keçməyə və ali təhsil ocağını bitirdikdən sonra iş yeri seçmək üçün geniş imkan var idi.

Lakin, 1914-cü ildə birinci dünya müharibəsinin başlanması çar hökumətinin Qafqazda ilk ali məktəbin açılması barədə qərarının icrasını təxirə saldı. Bu məsələyə yalnız fevral burjua inqilabından sonra, 1917-ci ilin mart ayında Müvəqqəti hökumət tərəfindən yenidən baxıldı.

Cənubi Qafqazda yeganə ali məktəbin "rus universiteti"nin Tiflisdə açılması nəzərdə tutulmuşdu. Bunun üçün yerli Ali qadın kurslarının professorlarından ibarət komissiya yaradılmışdı. Professor V.İ.Razumovskinin başçılıq etdiyi bu komissiya universitetin layihə və nəzərdə tutulan xərclərinin dəyərini hazırlayıb Cənubi Qafqaz hökumətinin müzakirəsinə verdi. O, bu hadisə ilə bağlı xatirələrində yazırdı: "işimiz qurtarana yaxın Qafqaz Zaqafqaziya Respublikası kimi Rusiyadan ayrıldı və gürcülərdən, ermənilərdən və türklərdən ibarət qarışıq hökumət təşkil edildi. Xalq maarif naziri bakılı Xan Xoyski idi. Biz Tiflisdə "rus universitetinin" təşkili üçün apardığımız işdən istifadə etməyi həmin hökumətə təklif etdik. Nazir bizi dinlədi, Qafqazda rus universite-

tinin təsis edilməsinə rəğbətini bildirdi, lakin əlavə edib dedi: "Bəs niyə Tiflisdə? Tiflisdə Politexnikum var, indi də gürcü universiteti..." Bəlkə iniversiteti Bakıda açmaq daha düzgün olardı?" O, bizim məlumat məktubumuzu nəzərdən keçirmək üçün götürdü və bizim məqsədimiz barədə Nazirlər Şurasına məlumat verəcəyini vəd etdi."[10]1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ilə xalqımızın qaranlıqdan işığa-azadlığa çıxması faktı gerçəkləşdi. Müstəqil milli dövlətçiliyin inkişafı yolunda irəliyə doğru böyük bir addım atıldı. Üçrəngli istiqlal bayrağını başı üzərinə qaldırmış demokratik Azərbaycan hökuməti həyatın bütün sahələrində olduğu kimi mədəni quruculuq sahəsində də bir çox mühüm tədbirlər həyata keçirdi. Bunlardan ən önəmlisi təhsil müəssisələrinin milliləşdirilməsi idi. Doğrudur pedaqoji kadr və müəllim çatışmazlığı, dərsliklərin kifayət qədər olmaması, milli azlıqların müqaviməti bu prosesin inkişafı üçün ciddi çətinlklər yaradırdı. Lakin hökumət milli təhsil siyasətini ardıcıllıqla davam etdirərək məktəb islahatı keçirmək qərarına gəldi.

1919-cu ilin mart ayında X.Məlik-Aslanovun Sədrliyi ilə əlifba islahatı üzrə xüsusi komissiya yaradıldı.[11]

Azərbaycan hökuməti iqtisadiyyat, idarəçilik və mədəniyyətlə yanaşı pedaqoji kadrların hazırlanmasına xüsusi əhəmiyyət verirdi. Bu məqsədlə Maarif Nazirliyi tərəfindən hər il respublikanın müxtəlif məntəqələrində dörd seminariya açılması planlaşdırılmış, Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsi Qazaxa köçürülmüşdü. 1919-cu ilin sentyabrında Bakıda ayrıca kişi seminariyası da açıldı. Lakin bu seminariyalar pedaqoji kadrlara olan tələbatı ödəmirdi. Bu isə respublikada ali təhsil ocağının açılması zərurətini gündəmə gətirdi. Siyasi xadimlər, ziyalılar və hətta ticarət-sənaye burjuaziyası belə bu məsələnin müzakirəsində yaxından iştirak edərək onu Azərbaycan hökumətinin qarşısında duran təxirəsalınmaz vəzifə hesab edirdi.

Maarif naziri N.Yusifbəyli Tiflis Politexnik institutunun Bakıya köçürülməsi şərtilə Azərbaycan hökuməti tərəfindən maliyyələşdirilməsi təklifini irəli sürmüşdü. Maarif Nazirliyi, həmçinin Bakıda Pedaqoji İnstitutun açılması barədə qanun layihəsi hazırlanmışdı. Bakı Musiqi Məktəbinin bazasında konservatoriya açılması məsələsi də gündəlikdə idi.[12]

Tiflisdə fəaliyyət göstərən Ali qadın kursları hələ 1918-ci ilin iyulunda rektoru V.İ.Razumovski olan Zaqafqaziya universitetinə çevrilmişdi. Burada üç fakultə-təbiət, tarix-filologiya və tibb var idi. Lakin tezliklə maliyyə çətinliyi ilə qarşılaşan bu ali məktəbin Yekaterinodar İrəvan və ya Bakıya köçürülməsi məsələsi ortaya çıxdı. İstər Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumət, istərsə də Nəsib bəy Yusifbəylinin, bu ali məktəbin məhz Bakıya köçürülməsini təkid edirdi. Bununla əlaqədar V.İ.Razumovski yazırdı: "1919-cu ilin əvvəlində Azərbaycan Respublikası xalq maarifi nazirinin müavini Həmid bəy Şahtaxtinski Tiflis şəhərinə gəldi. O, rus universitetini Bakıya köçürmək təklifi ilə gəlmişdi,... yaxşı binalar, maddi təminat və s. vəd etdi.[13] Azərbaycanın intelektual potensialı da respublikada ali təhsil ocağının açılmasına imkan verirdi. Belə ki, ictimai-siyasi, dövlət xadimləri, ziyalılar Avropa və Rusiyanın ali məktəblərini müvəffəqiyyətlə bitirərək müxtəlif ixtisaslara yiyələnmişdilər. Doğrudur, ali məktəblərdə dərs demək üçün müəllim kadrları kifayət qədər deyildi. Lakin, ilk zamanlar bunu qeyri millətlərdən olan professor –müəllim heyətinin hesabına həll etmək olardı.

Zaqafqaziya universitetinin professorlar şurasının qətiyyətli hərəkəti də onun Bakıya köçürülməsi məsələsində mühüm rol oynadı 1919-cu ilin martında rektor V.İ.Razumovski Universitet Şurasının iclasında Bakıya köçmək haqqında təklif irəli sürdü. Şura üzvlərinin çoxu bu fikrə tərəfdar çıxsalar da erməni nümayəndələr buna etiraz etdilər. Lakin, onlar Azərbaycan hökuməti ilə danışıqar aparacaq xüsusi komissiyanın yaradılmasına mane ola bilmədilər. Bakıda komissiya üzvlərinə bildirildi ki, əgər Zaqafqaziya rus universiteti bura köçürülməsə də Bakıda universitet açılacaqdır. Tezliklə maarif nazirinin müavini H.Şahtaxtinski V.İ.Razumovskiyə teleqram göndərərək Bakı Universitetinin təşkilini öz üzərinə götürməsini təklif etdi. Ondan müsbət cavab alınan kimi, Azərabycan xalq maarif nazirliyi nəzdində universitet komissiyasının yaradılması haqqında əsasnamə qəbul edildi. Mayın 19-da hökumət bu komissiyanın tərkibini təs-

diq etdi. Professor V.İ.Razumovskinin sədrlik etdiyi bu komissiyaya prof. A.M.Levin, prof. N.A.Dubrovski, katib İ.A.Babuşkinlə yanaşı Xalq Maarifi Nazirliyindən V.Rzayev, M.A.Şahtaxtinski, şəhər özünüidarəsinin üzvü Ə.Orucəliyev, "Neft sənayeçiləri qurultayı" şurasından A.N.Sarapov, M.Sultanov daxil idilər.[14] Bakıda universitetin açılmasına böyük əhəmiyyət verən Azərbaycan hökumətinin qəti qərarını Xalq Maarifi Naziri Rəşid bəy Qaplanov komissiyanın 1919-cu il 21 may tarixli ilk iclasında bəyan etdi. Böyük səlahiyyətlərə malik komissiya üzvləri yüksək vəzifəli dövlət məmurları ilə birbaşa əlaqə saxlamaq hüququna malik idilər.

Komissiyanın hökumətə təqdim etdiyi universitetin təsis edilməsi haqqında 31 may tarixli bəyannamə qanun və nizamnamə layihələri, 1919-1920-ci illərdə tədris ili üçün ştat və smeta layihəsi iyunun 7-də müzakirəyə verildi. İqtisadi vəziyyətin ağır olmasına baxmayaraq universitet üçün tələb olunan maliyyə vəsaiti 3,5 milyon manatdan 5 milyon manata, müəllimlərin əmək haqqı isə nəzərdə tutulduğunun 1/3, qədər artırıldı.[15]

Parlamentin 21 və 25 avqust 1919-cu il tarixli iclaslarında Bakıda universitetin təsisi ilə bağlı qanun layihəsinin qızğın müzakirəyə səbəb olması onun millət vəkilləri tərəfindən birmənalı qarşılanmadığını sübut etdi. Xüsusilə, maliyyə komissiyasının bəzi nüfuzlu üzvləri açıq və gizli şəkildə bu layihəyə qarşı çıxdılar.[16] Belə ki, onlar gənclərin ali təhsil almaq üçün Qərbi Avropaya göndərilməsini daha məqsədəuyğun hesab edirdilər. Əleyhdarların digər qrupu isə rus dilində universitetin açılmasının ruslaşdırmaya səbəb ola biləcəyindən ehtiyat edirdilər. Q.Qarabəyov, Y.Əhmədov, M.Əfəndizadə və başqaları ali məktəbin açılmasına qarşı çıxmalarını azərbaycanlı müəllimlərin çatışmaması və lazımi maliyyə vəsaitinin olmaması ilə əsaslandırırdılar.

Bakıda universitetin açılmasının qətiyyətli tərəfdarları olan M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, M.Hacınski, A.Əfəndizadə, S.A.Vonsoviç, S.M.Qənizadə, Ə.H.Qarayev, S.Ağamalıoğlu, R.Kaplanov və başqaları isə əksinə, ali təhsil ocağının açılmasının Azərbaycanda maarif və elmin inkişafına, bütün sahələr üzrə ixtisaslı kadrların hazırlanmasına səbəb olacağını bildirdilər. Bununla bağlı aparılan parlament müzakirələrindəki çıxışında Məhəmməd Əmin Rəsulzadə demişdi: "Burada universitetin açılması məsələsində iki fikir mövcuddur. Məsələyə muxalif olan münasibət onunla əsaslandırılır ki, bizdə kifayət qədər elmi kadrlar və mütəxəssislər yoxdur. Amma universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır. Buna görə də bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin, bu, başqa dildə də olsa, universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır.

...Universitetdə türk dili keçiləcək, tələbələrin özləridə Bakıda öz doğma xalqı içərisində özlərini rahat hiss edəcəklər."[17] Beləliklə, uzun mübahisə və müzakirələrdən sonra, parlament sentyabrın 1-də "Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun" qəbul etdi. Qanuna görə universitet dörd fakultədən: Tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olmalı idi, lakin müəyyən səbəblərə görə iki fakültə ilə açıldı. Universitetin ilk rektoru V.İ.Razumovski görkəmli tarixçi N.A.Dubrovskini tarix-filologiya, prof. İ.İ.Şirokoqorovu isə tibb fakültəsinin dekanı seçdi. Sonuncunun Bakıda olmadığına görə prof. A.M.Levin müvəqqəti olaraq onu əvəz etdi. Universitetdə dərs demək üçün Rusiyanın müxtəlif ali məktəblərindən görkəmli alimlər dəvət edildi.

Bakı Dövlət Universitetinin təsisi haqqında qanunda 1919-1920-ci dərs ilində tədrisin təşkili, zəruri avadanlıqlarla təchiz olunması üçün dövlət büdcəsindən 5 milyon manat vəsait ayrılması nəzərdə tutulmuş, Azərbaycan dilinin bütün fakültələrdə icbari fənn kimi tədris olunması xüsusi vurğulanmışdı.

Universitet komissiyasının 15 sentyabr tarixli son iclasında Müvəqqəti Şura və Universitet İdarə Heyəti yaradıldı. "Bakı Dövlət Darülününun Nizamnaməsi isə parlament tərəfindən sentyabrın 29-da təsdiq edildi. Həmin iclasda müzakirələrdə çıxış edən "İttihadi islam" partiyasının deputatı S.M.Qənizadə H.Z.Tağıyevin faciəvi surətdə həlak olmuş oğlu Məhəmmədin əziz xatirəsi üçün ticarət passajını bu təhsil ocağına bəxş

etməsi haqqında vədini açıqladı.[18] Bu fakt milli burjuaziyanın maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda maarifçilik hərəkatına xeyriyyəçiliyin bariz nümunələrindən biridir.

Universitet şurasının noyabrın 10-da keçirilən ilk iclasında professorların və akademik heyətin tərkibi təsdiq edildi və noyabrın 15-i birinci dərs günü elan olundu.

Doğrudur, ilk tədris ilində universitetdə təhsil alan Azərbaycanlı tələbələrin sayı çox az idi. Bununla belə, Avropa tipli bu ali təhsil ocağının yaradılması xalqımızın savadlılıq və mədəni səviyyəsinin yüksəlməsinə təkan vermiş oldu.

1920-ci il aprel istilasından sonra Azərbaycan müvəqqəti inqilab komitəsinin 1920-ci il 10 və 22 may tarixli dekretləri ilə universitetdə yenidənqurma işləri aparıldı. "Bakı Dövlət Universiteti haqqında" qəbul edilmiş yeni əsasnamədə bütün məşğələlərin müvəqqəti olaraq rus dilində aparılması nəzərdə tutulmuşdu. Həmin ilin dekabr ayında universitetdə fəhlə fakültəsi açıldı, Əvvəlcə fizika-riyaziyyat, 1922-ci ildən isə şərqşünaslıq fakültələri təşkil edildi.

Azərbaycan Xalq Maarifi Komissarlığının 1922-ci il 6 dekabr tarixli qərarı ilə Bakı Dövlət Universiteti Azərbaycan Dövlət Universiteti adlandırıldı. Yalnız 70 ildən sonra universitetə ilkin adı qaytarıldı. 90 illik fəaliyyəti dövründə bu ilk ali təhsil ocağı xeyli böyümüş, fakültələrin, eləcə də tələbələrin sayı dəfələrlə artmışdır.

Bu müddət ərzində universitetin maddi-texniki bazası gücləndirilmiş və tədris prosesində texniki vasitələrdən istifadə olunmasında əsaslı dəyişikliklər baş vermişdir. Azərbaycan Dövlət Universiteti əldə etdiyi yüksək göstəricilərə görə keçmiş "İttifaqın aparıcı universitetləri" sırasına daxil edilmişdi. Dünya şöhrətli görkəmli alimlər bu ali təhsil ocağında mühazirələr oxumuş, dərs demişlər. Respublikamızın tanınmış adamları, dövlət xadimləri, o cümlədən ümummilli lider Heydər Əliyev məhz bu ali məktəbin məzunu olmuşdur. O, bu barədə yazırdı: "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam"[19] Belə bir dahiyanə insanın onun məzunu olması ilə fəxr edən Universitetin Elmi Şurası bu təhsil ocağının inkişafına göstərdiyi böyük qayğıya, vətən, dövlət və xalq qarşısında misilsiz xidmətlərinə görə 1994-cü il 28 oktyabr tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyevə Bakı Dövlət Universitetinin Fəxri Doktoru adını vermişdir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası Bakı Dövlət Universitetinin də həyatında böyük dönüş yaratmış, onun beynəlxalq əlaqələrinin genişlənməsinə, həmçinin nüfuzlu universitetilər assosiasiyalarının üzvü olmasına yol açmışdır. BDU-nun hazırkı rektoru AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Abel Məmmədəli oğlu Məhərrəmov məhz belə assosiasiyalardan birinin dünyanın 100-dən artıq universitetini birləşdirən Qara dəniz hövzəsi universitetlər assosiasiyasının prezidenti seçilmişdir.

1919-cu ildə 44 əməkdaşı ilə fəaliyyətə başlayan universitetdə hazırda 1300-dən çox professor-müəllim çalışır.[20] O zaman cəmi iki fakültəsi və 877 tələbəsi olan BDU indi 43 ixtisas üzrə 14 min tələbə hazırlayan 17 fakültəyə malikdir.[21]

Azərbaycan Respublikasının möhtərəm prezidenti İlham Əliyev də BDU-nun inkişafına xüsusi qayğı göstərərək yeni korpus binasının tikilməsi və 4,6 milyon manat pul ayırmışdır. Bu isə yeni auditoriya, texniki təchizat və avadanlıqlar deməkdir.

Mən də fəxr edirəm ki, məhz bu ali təhsil ocağını bitirmişəm və 30 ilə yaxındır ki, burada çalışıram. Çünki, Bakı Dövlət Universiteti Avropa təhsilli siyasətçilərin, Azərbaycan Xalq Cümhuriyyətinin təməlini qoyanların yetirməsidir. Məhz onlar siyasi sabitsizlik, iqtisadi hərc-mərclik dövründə, bütün çətinliklərə və maneələrə baxmayaraq milli təhsil və mədəniyyət ocağının qurulmasına önəm verdilər, onlarla maarifçilik ideyalarında həmrəy olan rus professorlarına əl uzatdılar. Belı ki, həm rus alimləri, həm də Azərbaycan ziyalıları eyni hüquqi-siyasi mədəniyyətə məxsus idilər. [22]

---

[1] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992, s. 19

[2] Bax: Очерки истории школы и педагогической мысли народов СССР: XVIII в – первая половина XIX в. М. 1973, 527; Антология педагогической мысли Азербайджанской ССР М., 1989, s. 23

[3] "Каспий", 10 aprel 1899
[4] Baykara H.Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992, s. 52-53
[5] Bax: Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri), Bakı, 1999, s. 27.
[6] Məmmədzadə M.B. göst. əsəri, s. 20.
[7] Bax: Süleymanova S. Göstərilən əsəri, s.28.
[8] Bax: Yenə orada
[9] Bax: Azərbaycan tarixi, 7 cilddə, Vc., Bakı, 2001, s. 215
[10] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə, I cild, Bakı, 2004, s.200
[11] Bax: Yenə orada, s. 484
[12] Азербаджанская Демократическая Республика(1918-1920), Baku, 1998, s. 144, s. 200).
[13] Bax: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, s. 201
[14] Bax: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, s. 201
[15] Yenə orada.
[16] Вах: Рустамова Дж. Национальная буржуазия в период Азербайджанской Демократической Республики. Баку, 2007, с. 189.
[17] Bax: Azərbaycan tarixi, V cild, səh.486
[18] Bax: Rüstəmova C. göst. əsəri, s. 190.
[19] Bax: Azərbaycan Xalq Cümhuriyyət Ensiklopediyası, I c., s., 207.
[20] Bax: Yenə orada, s. 208.
[21] Yenə orada
[22] Атакишиев А.М. История Азербайджанского Государственного Университета. Баку, 1989, с. 24

**СЕВДА СУЛЕЙМАНОВА**
***профессор кафедры истории Азербайджана БГУ***

**ПЕРВОЕ ВЫСШЕЕ УЧЕБНОЕ ЗАВЕДЕНИЕ ЕВРОПЕЙСКОГО ОБРАЗЦА НА МУСУЛЬМАНСКОМ ВОСТОКЕ**

В статье рассказывается об образование на мусульманском Востоке первого высшего учебного заведения европейского образца. Анализируется роль Азербайджанской интеллигенции в образовании данного высшего учебного заведения.

**SEVDA SULEYMANOVA**
***professor of the department of history Azerbaijan***

**THE FIRST EUREPIAN UNIVERSITY IN MUSLIMAN EAST**

In the article is speaking about the creating the history first university by the ancient documents in Azerbaijan. Then there is showing the traggle of azerbaijanian intellegiants for the opening the first university in Azerbaijan, which is Baku State University now. The end of this with the bill of Azerbaijan Parliament was opened the first Eurepian university in Musliman East.

***Rəyçi: t.e.d.M.Q.Abdullayev, t.e.d.R.C.Süleymanov***
***BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının 06 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***